

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 62 (21.472)

7 aprel 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andryönü və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı vəziyyət müzakirə olunub.

Həmsədrlər cəbhə xəttində atəşkəs razılaşmasının əldə olunmasını alqışlayıblar. Onlar belə bir fikri diqqətə çatdırıblar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırda aparılan danışıqlar daha intensiv xarakter almalı və bu danışıqlar nəticəsində münaqişə tezliklə öz həllini tapmalıdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.



## Gələcək hüquqşünaslarla görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib. Aprelin 5-də universitetin bu ixtisas üzrə 2 və 4-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Burada tələbələri prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi ilə tanış ediblər. Tələbələrə cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri barədə danışılıb. Cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elan etmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri izah olunub.

Tələbələrə "Prokurorluq haqqında" Qanuna əsasən prokurorluğun fəaliyyət istiqamətləri barədə də məlumat verilib. Qeyd edilib ki, həmin istiqamətlər dövlət ittihamını müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etməkdən ibarətdir.

Tələbələrin Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsində açıq məhkəmə prosesində iştirakları da təmin olunub. Məhkəmə prosesindən sonra tələbələrə Azərbaycan Respublikasının qanunvericilik bazasında kompüter proqramı barədə məlumat verilib. Qeyd olunub ki, proqrama Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar və ikitərəfli müqavilələr, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarının və digər sənədlərin nümunələri daxildir. Tələbələrə prokurorluq orqanlarında işə qəbul, prokurorluq işçilərinin nəzəri, peşə biliklərinin səviyyəsinin kompüter vasitəsilə yoxlanılması, attestasiyalar keçirilməsi qaydaları haqqında da məlumat verilib.

Aprelin 6-da isə universitetdə Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrlə görüş keçirilib. Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu ixtisas üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev Ali Məclis Sədrinin adıçəkilən sərəncamının və bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Prokuror bildirib ki, bu sərəncam tələbələrin dərs məşğələləri zamanı qazandıqları biliklərin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair tədbirlər planının təsdiq olunduğunu bildirən prokuror diqqətə çatdırıb ki, planda Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması nəzərdə tutulub. Bundan başqa, planda gələcək hüquqşünasların muxtar respublika prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri üçün lazımi şərait yaradılması da öz əksini tapıb.

Prokuror bildirib ki, artıq bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər davam etdirilir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, gələcəkdə görüləcək işlər barədə təkliflər dinlənilib.

✍ Muxtar MƏMMƏDOV

*Muxtar respublikamızda nail olunan sosial-iqtisadi inkişafın təməlində duran amillərdən biri də bu məqsədlə qəbul edilən dövlət proqramları, həmin proqramların vaxtında və uğurla icra edilməsidir.*

## Dövlət proqramı uğurla icra olunur

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi də real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişafın təmin edilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, ötən dövr ərzində muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə aparılan geniş tikinti-quraşdırma, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi, təmiri muxtar respublikanın simasını gözəlləşdirməklə yanaşı, onun inkişafının təcəssümünə çevrilib. Proqramın qəbulundan ötən 2 il ərzində əsas kapitala 1 milyard 875 milyon 825 min manat həcmdə investisiya yönəldilib. Bu investisiyanın sərfi nəticəsində ötən 2 il ərzində muxtar respublikada 584 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 43 elm və təhsil müəssisəsi, 66 mədəniyyət müəssisəsi, 28 səhiyyə müəssisəsi, 56 rabitə müəssisəsi, 4 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərərçəkmiş ailələr üçün 13 fərdi ev və digər bu kimi sosial infrastruktur obyektləri istifadəyə verilib.

Məlumatda o da bildirilir ki, iqtisadi inkişafın keyfiyyət göstəricilərindən biri də ölkənin iqtisadi strukturudur. Qeyd etmək lazımdır ki, son dövrlərdə muxtar respublikada mütərəqqi struktur dəyişiklikləri baş verib. Bunun ifadəsidir ki, muxtar respublikada müasir texnologiyalara əsaslanan iri sənaye müəssisələri və kompleksləri yaradılır, sənayeləşdirmə prosesi sürətlə davam edir. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb. Proqramın icrası istiqamətində 110 yeni istehsal və xidmət müəssisələri yaradılıb.

Dövlət proqramının 2 illik icrası dövründə Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına 43 investisiya layihəsinin maliyyələşdirilməsinə, bütövlükdə, 17 milyon 319 min 200 manat həcmində kreditlər verilib.

Xəbərlər şöbəsi

## Daşınmaz əmlakın qeydiyyatı üzrə əhaliyə göstərilən səyyari xidmət davam etdirilir

Ötən il 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən aidiyyəti qurumlara müvafiq xidmətlərin səyyari qaydada göstərilməsinin təmin edilməsi ilə bağlı tapşırıqlar verilib. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən tədbirlər həyata keçirilib, müvafiq maddi-texniki baza yaradılıb. Səyyari xidmət zamanı vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədlərinin – torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, dövlət aktlarının, qeydiyyat vəsiqələrinin daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi və digər xidmətlər göstərilir. Vətəndaşların ərizələri yaşadıqları ərazidə qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilir. Qəbul edilmiş sənədlər komitənin rayon qurumları tərəfindən elektron sistemə daxil edilir, texniki sənədlər hazırlanır. Mülkiyyət obyektləri daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır, çıxarışlar hazırlanır və qısa müddət ərzində yerlərdə vətəndaşlara çatdırılır.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, 2015-ci ildə səyyari xidmət vasitəsilə muxtar respublikanın 85 yaşayış məntəqəsindən 1502 müraciət qəbul edilib. 2016-cı ilin I rübü ərzində isə muxtar respublikanın 24 yaşayış məntəqəsində vətəndaşlara səyyari xidmət göstərilib, xidmət zamanı 308 müraciət qəbul edilərək müvafiq qaydada baxılıb.

Aprelin 5-də komitənin səyyari briqadası Şərur rayonunun Dəmirçi kəndində olub və burada əhaliyə xidmət göstərib. Biz də adıçəkilən yaşayış məntəqəsində olduq, xidmətin səviyyəsi ilə maraqlandıq.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Rüstəm Həsənov bizimlə söhbətində bildirdi ki, xidmət göstəriləcək ünvanlarda 5 gün əvvəl elanların vurulması təmin edilir və sakinlər arasında maarifləndirmə işləri aparılır.

Səyyari xidmət Dəmirçi Kənd Mərkəzinin qarşısında təşkil olunmuşdu. Artıq səhər saatlarından xidmətdən istifadə etmək üçün gələnlərin sayı getdikcə artırdı. Kənd sakini Elşən Həsənov bildirdi ki, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı bu cür xidmətlərin yerlərdə təşkili onları çox sevindirir: "İndi artıq heç bir dövlət qurumunun qapısını döymədən işlərimizi görə bilirik. Daşınmaz əmlakın qeydiyyatı bu xidmət vasitəsilə xeyli yüngülləşib".



Digər kənd sakini Nuru Fərəcov da göstərilən xidmətdən razılığını bildirdi. Dedi ki, daşınmaz əmlakın qeydiyyata alınması indi çox sadədir. Belə ki, hər kəs ona aid olan tikilinin və ya torpaq sahəsinin qeydiyyatı üçün bu cür xidmətdən istifadə edə bilər. Burada çox yüksək səviyyədə xidmət göstərilir. Əmlakla bağlı bizi maraqlandıran suallar cavablandırılır. Çox razıyıq, belə xidmətin təşkilinə görə dövlətimizə minnətdarıq.

Kənddə olduğumuz müddətdə ahıl kənd sakini Bahar Nəcəfovaya yaşadığı ünvanda xidmət göstərildi. Qısa müddətdə 82 yaşlı kənd sakinə məxsus torpaq sahəsinin şəhadətnaməsi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq çıxarışla əvəzləndi. Bahar Nəcəfova göstərilən xidmət üçün dövlətimizə minnətdarlığını bildirdi.

Günün sonuna doğru Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Rüstəm Həsənovla əlaqə saxlayaraq öyrəndik ki, gün ərzində 13 nəfər kənd sakini səyyari xidmətdən yararlanıb.

Qeyd edək ki, əhaliyə səyyari xidmətlərin göstərilməsi muxtar respublikada daşınmaz əmlak bazarının aktivləşməsinə, daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasına böyük təkan verir. Bundan başqa, səyyari xidmətin təşkili yerlərdə vətəndaşların müraciətlərini operativ şəkildə cavablandırmağa, vaxta qənaət etməyə, insanların şəhər və ya rayon mərkəzlərinə getmədən müraciətlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaradıb.

✍ Səbuhi HƏSƏNOV

# "Əbədiyyət Günəşi" kitabının təqdimat mərasimi keçirilib

*Azərbaycan Respublikasının Əməkdar müəllimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Namiq Məmmədovun bu yaxınlarda oxuculara təqdim olunmuş "Əbədiyyət Günəşi" adlı kitabının təqdimat mərasimi keçirilib.*





Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Heydər Əliyev adına tam orta məktəbdə keçirdiyi təqdimat mərasimində təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli çıxış edərək deyib ki, görkəmli Çin mütəfəkkirlərindən biri yazırdı: "Şəxsiyyət xalqın məşəlidir, onsuz irəliyə yol yoxdur. Çünki şəxsiyyətin işini ayrı-ayrı fərdlər görə bilməzlər. Şəxsiyyətlər səma adamlarıdır, yerə müəyyən missiya üçün göndərilir".

Oxucu kitabda toplanmış yazılarda bu həqiqəti bir daha dərk edir ki, ulu öndər Heydər Əliyev bu xalqa Tanrının xilaskarlıq missiyasını yerinə yetirməyə göndərdiyi dahi, əvəzolunmaz şəxsiyyətdir. Belə şəxsiyyətlər yüz ildə bir yetişirlər və onların mənsub olduqları xalqlar dünyanın xoşbəxt xalqları sırasındadırlar... Ümummilli liderimiz Heydər Əliyev belə şəxsiyyətlərin fövqündə dayanan görkəmli siyasi xadimdir. Azərbaycanın inkişafı yolunda misilsiz xidmətlər göstərən, taleyüklü vəzifələri yerinə yetirən, epoxal missiyanı həyata keçirən ulu öndər hələ sağlığında xalqın ümummilli liderinə çevrilib.

Bildirilib ki, müəllif real faktlarla ulu öndərin ölkəmizə rəhbərliyi dövründə həyatımızın bütün sahələrində qazanılan uğurları oxucuya təqdim edir. Yaxşı cəhət kimi qeyd edək ki, kitabda toplanan yazılar statistik formadan uzaqdır və bu yazılarda təhlil öndə dayanır, keçilən yol, qazanılan uğurlar, nail olunan nəticələr publisistik dillə oxucuya çatdırılır.

Ulu öndər hər bir xalqın, dövlətin inkişafında başlıca amili təhsilə qayğıda görərək deyirdi: ***"Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq..."***

Diqqətə çatdırılıb ki, müəllif yüksək amallara nail olmaq üçün ümummilli liderin bu sahəyə qayğısını xüsusi vurğulayır. "Heydər Əliyev strategiyası uğurla davam etdirilir" adlı məqalədə bir fikri xatırlamaq yerinə düşər: "İnkaredilməz bir həqiqətdir ki, milli təhsil strategiyasının yaranması və formalaşması, bu sahədə aparılan ardıcıl islahatlar, dövlətçilik, milli ideologiya məsələləri ulu öndərimizin adı ilə bilavasitə bağlıdır. Əslində, müstəqil və suveren ölkəmizin milli ideologiyasının, milli təhsilimizin əsası hələ 70-80-ci illərdə ulu öndərimiz Heydər Əliyevin respublikaya birinci dəfə rəhbərlik etdiyi illərdə qoyulmuşdur. Bu barədə danışarkən belə bir faktı xatırlamamaq qeyri-mümkündür. Məhz ulu öndərimizin şəxsi təşəbbüsü və qayğısı nəticəsində Azərbaycandan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox məşhur ali məktəblərində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc ali təhsil almışdır. Bu faktın özü xalqımızın böyük oğlu Heydər Əliyevin 70-80-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə təhsil sahəsində yeritdiyi böyük siyasətin konkret təzahürü idi".

"Tarixdə əbədi yaşayan insan" məqaləsində müəllif ulu öndərin Naxçıvanla bağlı arzularının tamamilə gerçəkləşdiyini dilə gətirir: "Muxtar respublikamızda yaradılan müəssisələr, elektrik stansiyaları, məktəblər, xəstəxanalar, abad yollar, körpülər, minlərlə iş yerləri uğurla həyata keçirilən Heydər Əliyev siyasətinin bəhrəsidir. Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ona görə inkişaf edir ki, ümummilli liderimizin yolu ilə gedir".

Kitabın dəyərini artıran səbəblərdən biri də ulu öndərin uzun illər üçün hesablanmış fəaliyyət strategiyasının bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilməsinin real və həyati faktlarla qələmə alınmasıdır.

Müəllif yazıların böyük əksəriyyətində Azərbaycan Respublikası Prezidentinin ölkəmizin daxili və xarici siyasət sahəsində qazandığı uğurlarda ulu öndərin ideyalarına söykəndiyini, dövlətimizin, dövlətçiliyimizin möhkəmləndirilməsində ümummilli liderin müəyyənləşdirdiyi yolu müasir zamində davam etdirdiyini, böyük uğurlara nail olunduğunu önə çəkir və bu qənaətə gəlir ki, bütün bunlar Heydər Əliyev ideyalarının əbədiyaşarlığının ifadəsidir.

Elman Cəfərli uzun illərin zəhmətinin bəhrəsi olan "Əbədiyyət Günəşi" adlı toplunun hər bir azərbaycanlının stolüstü kitabına çevriləcəyinə inamını bildirməklə Namiq Məmmədovu belə bir kitabı ərsəyə gətirməsi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Təqdimat mərasimində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli və başqaları kitabın məziyyətləri barədə danışıblar.

Sonda kitabın müəllifi Namiq Məmmədov belə tədbirin təşkili üçün minnətdarlığını bildirib.

**Muxtar MƏMMƏDOV**

## Biz cənab Ali Baş Komandanın əmrini gözləyirik!

## *Naxçıvanlı gənclər döyüşə hazırdırlar*

***Xalqımız gələcəyimiz olan gənclərin Vətənə məhəbbət, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb, buna həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu, bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.***

Son 20 ildə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində Vətənini sonsuz məhəbbətlə sevən, müqəddəs torpaqlarımızın hər qarışı uğrunda canından keçməyə hazır olan bir nəsil formalaşıb, gənc nəsildə ən yüksək səviyyədə milli mənlik şüuru və vətənpərvərlik hissləri ərsəyə gəlib. Azərbaycan Prezidenti cənab İlham Əliyev aprelin 5-də son vaxtlar döyüşlərdə şəhid olanların və yaralananların yaxınlarının bir qrupu ilə görüşdə bu məsələyə diqqət çəkərək deyib: ***"Uşaqlar müstəqillik dövründə formalaşıblar. Onlar müstəqil Azərbaycan bayrağı altında böyüyüblər. Onlarda milli qürur hissi, milli ləyaqət hissi çox yüksəkdir. Mən həmişə demişəm ki, bizim bütün gənclərimiz vətənpərvər, Vətənə bağlı olmalıdırlar".***

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşüb. Bu gün belə vəzifələri öz Vətənini sevən, onun tərəqqisinə çalışan və ərazi bütövlüyümüzün qorunması uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirir. Sevindirici haldır ki, muxtar respublikamızın da gəncləri Vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlət quruculuğunda fəal iştirak edir, vətənpərvər olduqlarını sözdə deyil, əməldə nümayiş etdirirlər. Elə son günlər Dağlıq Qarabağda və ətraf ərazilərdə baş verən hadisələr də Naxçıvan gənclərini vahid bir mexanizm kimi hərəkətə keçirib. Onlarla söhbətlərimizdən də məlum oldu ki, son günlər Silahlı Qüvvələrimizin işğal olunmuş torpaqlarımızın bir hissəsini azad etməsi gənclərdə böyük ruh yüksəkliyi yaradıb, hər kəs qələbə əhval-ruhiyyəsinə köklənib. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səfərbərlik hazırlığı, səfərbərlik və ehtiyatda olan şəxsi heyətin qeydiyyatı idarəsinin rəisi, polkovnik-leytenant Ziyarəddin Baxşəliyev son hadisələrlə əlaqədar cəbhəyə yollanmaq istəyən çox sayda gəncin idarəyə müraciət etdiyini dedi. Qeyd etdi ki, aprelin 2-dən başlayaraq xidmətin aparatına, yerli idarə, şöbə və bölmələrinə könüllü olaraq cəbhə bölgəsinə, eləcə də Naxçıvan Muxtar Respublikasının düşmənlə sərhəd ərazilərindəki hərbi məntəqələrinə getmək istəyən gənclər tərəfindən çoxsaylı müraciət daxil olub, gənclərimiz yüksək vətənpərvərlik hissləri nümayiş etdiriblər. Bu isə onu göstərir ki, qədim oğuztürk torpağı olan Naxçıvanda, sözün həqiqi mənasında, vətənpərvər gənclik formalaşıb.

Həmsöhbət olduğumuz gənclərin əksəriyyəti səfərbərlik olarsa, əsgərlərimizlə çiyin-çiyinə vuruşmağa hazır olduqlarını, Ali Baş Komandanın əmrini gözlədiklərini dedilər.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin IV kurs tələbəsi Abbas Məmmədli bildirdi ki, düşmən ordusuna qarşı Silahlı Qüvvələrimizin layiqli cavabı, bir sıra strateji əhəmiyyətli ərazilərin azad edilməsi, düşmənin ağır itkilərə məruz qalması və ordumuzun zəfər yolunda qəti addımlarını atması bizdə fəxarət, qürur hissi doğurur. Bu, işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyinə olan inamımızı daha da artırıb. Cəbhə bölgəsində qazanılan bu hərbi qələbə məni və tələbə yoldaşlarımı ruhlandırıb. Ümumi səfərbərlik elan ediləcəyi təqdirdə biz tələbələr Vətən torpaqlarının müdafiəsinə qalxmağa hazırıq.

Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Zaur Kərimov bu gün ölkəmizin apardığı siyasət sayəsində Ermənistanın işğalçı simasının ifşa edilməsi, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi uğurlar əldə olunduğunu dedi. Bildirdi ki, Silahlı Qüvvələrimizin gücü günü-gündən artır, dünyada müşahidə olunan iqtisadi gərginliyə baxmayaraq, ölkəmiz, eləcə də muxtar respublikamız dinamik inkişafdadır. Beynəlxalq aləmdə, eləcə də Dağlıq Qarabağda artan gərginlik fonunda muxtar respublikamız sabit, təhlükəsiz məkan kimi diqqəti cəlb edir. Bu həm də onunla əlaqədardır ki, Naxçıvanda xalq-ordu münasibətləri ən yüksək səviyyədə qurulub, Əlahiddə Ümumqoşun Ordusu müasir silah-sursatla təchiz edilib. Bundan illər öncə ilə müqayisədə düşməni darmadağın edəcək ordumuz var. Ona görə də düşmən bu dəfə Naxçıvana gözünün ucu ilə baxmağa belə, cəsarət etməyib. Bu, ümumilikdə, Naxçıvanda ordu quruculuğuna göstərilən diqqət və qayğının bəhrəsidir.

"Naxçıvan" Universitetinin tələbəsi Jalə Mirzəyeva isə güclü və qüdrətli ordumuzun əsgər və zabitlərinin düşmənə sarsıdıcı zərbə endirərək onları geri çəkilməyə məcbur etməsini, xüsusilə də bu əsgər və zabitlərin əksəriyyətinin gənc olmasını, ümumilikdə, Azərbaycan gəncliyinin qələbəsi adlandırdı. Dedi ki, təhsil aldığı universitetin tələbə və müəllim heyətini bu qələbə çox sevindirib. Əsgərlərimizin rəşadəti sayəsində düşmənin geri çəkilməsi, cəbhəyanı kəndlərimizdə insanların təhlükəsizliyinin təmin olunması onlarda qəti qələbə qazanacağımıza inamı artırıb. Artıq hər kəs əmindir ki, düşmənin istənilən təxribatı onlara baha başa gələcək. Son döyüşlərdə ordumuzun düşmən üzərində nəzərəçarpan üstünlük əldə etməsində, ermənilərin canlı qüvvə və texnika sarıdan xeyli sayda itki verməsində ölkə gəncliyinin böyük rolu olub. Naxçıvanlı gənclər torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidimiz mayor Rasim Məmmədovun vida mərasimində mütəşəkkil iştirakları ilə bir daha sübut etdilər ki, hər bir gənc Vətən uğrunda şəhid olmanın necə yüksək bir zirvə olduğunu yaxşı başa düşür, onların döyüş yolunu öyrənir, qəhrəmanlıq göstərməyə can atır.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan şəhər şöbəsinin sədri Zahid Cəfərov dedi ki, son günlərdə Naxçıvandan olan onlarla Azərbaycan Vətən Müharibəsi veteranı şöbəyə müraciət edərək Qarabağda gedən döyüşlərdə iştirak etmək, ən azından gənclərin yanında olmaq istədiyini bildirib. Veteranlar əsgərlərimizin döyüş əzmini artırmaq məqsədilə əsgər və zabitlərlə bir sırada, onlarla çiyin-çiyinə düşmənə qarşı döyüşmək arzusunda olduqlarını deyiblər. Sevindirici haldır ki, Vətənimizə olan hücumların qarşısı qətiyyətlə alınır. Biz düşmənə layiqli cavab verən cəsarətli ordumuzun uğurlarını dəstəkləyir, ordumuzla bir yerdə olduğumuzu bəyan edirik.

Sədərək döyüşlərində iştirak edən müsahibim onu da qeyd etdi ki, Sədərəkdə qızğın döyüşlər gedən zaman silaha sarılan əsgərlərin ilk günlərdə ancaq xalqın milli birliyi sarıdan nigarançılığı var idi. Bundan başqa, silah-sursat çatışmırdı. Ancaq ulu öndərimizin Naxçıvana gəlişindən sonra nigarançılığa da son qoyuldu, çatışmazlıqlar da aradan qaldırıldı. Böyük rəhbərə dərin məhəbbət bəsləyən və ona xalqın ümid mənbəyi kimi baxan fədailərimiz sərhədlərimizi qoruyub saxladı, bir qarış torpağı da düşmənə vermədi. Təəssüflər olsun ki, ulu öndərimizin Azərbaycanda siyasi hakimiyyətə qayıdışına qədər Qarabağda ən strateji məntəqələr işğal edilmişdi. Ancaq bütün bunlara baxmayaraq, ulu öndər silahlı dəstələr arasında birliyə nail oldu, çox keçmədi ki, Horadizdə ilk qələbə qazanıldı, milli ordunun formalaşdırılmasına başlanıldı. Bu iş ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çox sevinirik ki, bu gün Azərbaycanın qüdrətli ordusu var, ötən əsrin əvvəllərində və sonlarında baş verən qətliamlar qətiyyən təkrarlana bilməz. Ötən günlərdə ordumuzun qazandığı qələbə, bir növ, müstəqil Azərbaycan gənclərinin ulu öndərin əziz xatirəsinə ərməğanıdır.

Ordudan yenicə tərxis edilmiş Bayram Hüseynzadə düşmən qoşunlarının son təcavüzkar hərəkətlərindən televiziya vasitəsilə xəbərdar olduqda Sədərəkdə xidmət edən döyüş yoldaşları sarıdan narahatlıq hissi keçirdiyini dilə gətirdi. Dedi ki, bu xəbərləri eşitdim, ancaq son illərdə dövlətimizin Sədərəyi alınmaz qalaya çevirməsindən xəbərdar idim. Bəlkə də, bu səbəbdən idi ki, səngərdə çiyin-çiyinə keşik çəkdiyimiz yoldaşlarımdan mövcud durumu xəbər aldıqda "Sakitlikdir, onların bizə güllə atmağa cəsarəti çatmaz, buradakı qüvvələr Domoklqılıncı kimi onlara səhv etməməyi hələ çox-çox əvvəllərdən öyrədib", – dedilər. İnanın ki, çox sevindim. Bir də Qarabağdan şad xəbər gəldiyində sevindim. Ordumuz bir daha sübut etdi ki, bir neçə həmləyə tarixi ədaləti bərpa etmək gücünə malikdir. Ordudan yenicə tərxis olunsam da, yenidən xidmət etdiyim hərbi hissəyə qayıtmağa, döyüşlərdə iştirak etməyə, bu yolda canımdan belə, keçməyə hazıram. Təki Vətən sağ olsun!

*...Vətənpərvərlik Vətənə olan ülvi məhəbbət, ölkəsinə və dövlətinə sədaqət, ən nəcib amallar uğrunda, gələcək naminə mübarizə deməkdir. Buna görə də sözdə "vətənpərvərəm" deməklə iş bitmir. Hər bir insan vətənpərvərliyini əməlləri ilə, gördüyü işlərlə sübut etməlidir. Vətəndaşlıq hissi olan şəxs Vətənin taleyi ilə bağlı baş verən hadisələrin fəal iştirakçısına çevrilməlidir. Dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi, ərazi bütövlüyümüzün bərpası və qorunması yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz Vətənini sevən gənclər yerinə yetirə bilərlər. Muxtar respublikanın gəncləri də Vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirir, onun qorunmasında fəal iştirak edir,* ***"Biz cənab Ali Baş Komandanın əmrini gözləyirik!"*** *deyirlər.*

**Səbuhi HÜSEYNOV**

## 7 aprel Ümumdünya Sağlamlıq Günüdür

# Muxtar respublikada insanların sağlamlığı diqqətdə saxlanılır



Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

***1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatı fəaliyyətə başlamışdır. Həmin tarixdən etibarən aprelin 7-si Ümumdünya Sağlamlıq Günü kimi qeyd olunur.***

Azərbaycanda səhiyyənin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərindən başlayaraq həyata keçirilən islahatlar səhiyyə sahəsinin əsaslı inkişafına səbəb olmuş, həmin dövrdə ölkəmizin bütün bölgələrində müasir xəstəxana binaları tikilərək istifadəyə verilmişdir. Müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə səhiyyə sahəsində kompleks tədbirlər həyata keçirilmiş, bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, müasir səhiyyə infrastrukturu yaradılmışdır.

Tibbi xidmətin müasir standartlar səviyyəsində təşkili, vətəndaşların sağlamlığının etibarlı qorunması bu gün diqqət mərkəzində olan məsələlərdən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində uğurla davam etdirir. Son illər səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə səbəb olmuşdur.



Naxçıvan Muxtar Respublika Xəstəxanası

Muxtar respublikada da səhiyyə quruculuğu geniş vüsət almışdır. Son illərin möhtəşəm quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə və Doğum mərkəzləri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Ağciyər, Psixi Xəstəliklər dispanserləri, Duzdağ Fizioterapiya, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Naxçıvan Şəhər Təcili Tibb, Uşaq Bərpa mərkəzləri, Naxçıvan Şəhər Körpələr Evi, Darıdağ Arsenli Su Müalicəxanası, rayonlardakı mərkəzi xəstəxanalar, eləcə də kənd yaşayış məntəqələrində istifadəyə verilən yüzlərlə tibb ocaqları müasir təchizatı ilə səhiyyənin yeni inkişaf mərhələsinin töhfələridir. Ümumiyyətlə, muxtar respublika əhalisinin sağlamlığının qorunmasına göstərilən xüsusi diqqət və qayğının nəticəsidir ki, son illər ərzində 220-dən çox səhiyyə müəssisəsi müasir standartlara uyğun qurularaq və yeni tibbi avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir.

Tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa şərait yaradır. Bütövlükdə, tibb müəssisələrinin stasionar və ambulatoriya bölmələri xidmətin əhatə dairəsini xeyli genişləndirmişdir. Bu gün səhiyyə müəssisələrindəki kompüter tomoqraf, nüvə maqnit rezonans, mammoqrafiya, qastroskopiya, kolonoskopiya aparatları müayinə və müalicənin düzgün və səmərəli təşkilinə imkan verir.



Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

Bu gün muxtar respublikada səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Yaradılan şərait muxtar respublikada insanların kütləvi tibbi müayinədən keçirilməsi tədbirlərinin də uğurlu icrasını təmin etmişdir. Dispanserizasiya işini daha da yaxşılaşdırmaq məqsədilə yerlərdə davamlı olaraq əhalinin müayinə-müalicə işi, səhiyyə, təhsil və mədəniyyət müəssisələrində mammoqrafiya müayinələri aparılır. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrası da diqqət mərkəzində saxlanılır, kiçikyaşlı uşaqlar arasında tuberkulin sınağı və poliomielit xəstəliyinin profilaktikası, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri də uğurla davam etdirilir. Bundan başqa, Bakı şəhərindən muxtar respublikaya dəvət olunan yüksəkixtisaslı həkim briqadalarının yerli həkimlərlə birgə əməliyyatlar aparması da artıq ənənə halını almışdır. Sosial layihələr çərçivəsində təkcə ötən il yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 556 cərrahi əməliyyat, o cümlədən 114 xəstədə açıq ürək, 97 nəfərdə göz və digər xəstəliklərlə bağlı 345 müxtəlif əməliyyatlar aparılmış, 22 xəstənin ürək damarlarına stend qoyulmuşdur. Bu gün Naxçıvanda ən mürəkkəb cərrahi əməliyyatların aparılması əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır.

Əhali arasında səhiyyə maarifi işinin təşkilinə də diqqət artırılmışdır. Mərkəzi xəstəxanalar tərəfindən təşkil olunan həkim briqadaları müvafiq qrafik əsasında kəndlərdə olur, əhaliyə nümunəvi xidmət göstərirlər. Ahıl və əlillər də daimi tibbi müayinələrdən keçirilir, onlar Bakı şəhərinin Şağan qəsəbəsindəki Əlillərin Müalicə Pansionatına, Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına və digər xəstəxanalara müalicəyə göndərilirlər.

Görülən işlərin nəticəsidir ki, son illər Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonelloyz, bakterial dizenteriya, difteriya, epidemik parotit pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmamışdır. Həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin yaşayış səviyyəsinin davamlı yüksəlişi, müalicə-profilaktika işinin nümunəvi təşkili, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artması demoqrafik vəziyyətə öz müsbət təsirini göstərmişdir.

Həyata keçirilən profilaktik tədbirlərin səmərəli nəticələr verdiyini bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***

Bu gün muxtar respublikada əhaliyə 233 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Həmin tibb müəssisələrində 707 həkim, 2103 orta tibb işçisi çalışır. Həkimlərdən 99 nəfəri Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi adına layiq görülmüşdür. Muxtar respublikada səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Son illər Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilmişdir. Hər iki səhiyyə müəssisəsi hər il yüzlərlə xarici turistin müraciət etdiyi müalicə ocağına çevrilmişdir.

Səhiyyə sahəsində kadr təminatı ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. İxtisaslı tibbi kadrların yetişdirilməsi ilə yanaşı, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılır. Təkcə ötən il bu məqsədlə 15 həkim və 3 rezident Türkiyə Respublikasının müxtəlif universitetlərinə, 11 həkim və 3 orta tibb işçisi Bakı, 2 həkim Moskva şəhərlərinə göndərilmiş, 21 laborant Naxçıvan Tibb Kollecində laboratoriya işi üzrə təkmilləşmə kursu keçmişdir. Naxçıvan Tibb Kollecinin 20 nəfərlik müəllim və tələbə heyəti isə Ərzurum Atatürk Universitetində 15 günlük təcrübə mübadiləsinə cəlb edilmişdir. Ötən il muxtar respublikada səhiyyə sahəsində 14 konfrans, 104-dən çox seminar keçirilmişdir.



Şahbuz Rayon Mərkəzi Xəstəxanası

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanılmışdır. Nazirliyin rəsmi internet saytı “Elektron hökumət” portalına qoşulmuş və yenilənmişdir. Saytda elektron müraciətlər bölməsinin fəaliyyəti ilə yanaşı, imtahan test sualları, obliqat qrupların müayinəsi, uşaq sağlamlıq kartları haqqında məlumatlar verilir və statistik göstəricilər mütəmadi olaraq yenilənir.

***Naxçıvan Muxtar Respublikasında müasir səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və ixtisaslı tibbi kadrlarla təminatı əhalinin sağlamlığının lazımi səviyyədə qorunmasına xidmət edir. Muxtar respublikanın tibb işçiləri bundan sonra da insanların sağlamlığının etibarlı təminatçısı olacaq, yaradılan şəraitdən istifadə edərək səhiyyənin inkişafına öz töhfələrini verəcəklər.***

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# O gənc...

Qədim Azərbaycan torpağı İrəvanda yaşayan Murtuzayevlər ailəsi 1989-cu ildə doğulan ilk övladlarına Sahil adını qoyurlar. Ancaq Sahilin dünyaya göz açması ilə onun qara günləri də başlayır. Körpə uşaqla öz ata-baba torpağını tərk etmək məcburiyyətində qalan ailə Qarabağda məskunlaşır. Ancaq qara buludlar Murtuzayevlər ailəsini qarabaqara izləyirdi. 1990-cı illərdə baş verən məlum hadisələr onları buradan da uzaqlaşmağa məcbur edir. Ailə Kəngərli rayonunun Çalxanqala kəndində yaşayan qohumlarından birinin yanına üz tutur. Bir neçə aydan sonra ailə başçısı Arif müəllim bu kənddə yaşayış şəraiti olmayan bir uçuq ev alır. Ancaq ailə sabaha inamını itirmir.

Bir çox əziyyətlərin şahidi olan Sahil artıq 17 yaşında ən böyük arzusuna çatır. Kənddə məskunlaşan məcburi qaçqın və köçkünlər üçün 2004-cü ildə evlər tikilməyə başlanılır. Sahil hər dəfə dərsə gedəndə yeni tikilən evlərə baxır, onların tezliklə başa çatmasını arzulayır. Artıq bu tikintilərdə çalışanlar Sahili yaxından tanıyırdılar. Hətta zarafatla:

– Sahil, sən tələbə olmasan, bu evlərdən sizə verməyəcəklər, dərslərini yaxşı oxu, – deyirdilər. Sahil böyük həvəslə ali məktəbə hazırlaşır, həm də yeni evin həyəcanını yaşayırdı.

Nəhayət, o gün gəlib yetişdi. 2005-ci ilin may ayının isti günlərinin birində bütün Çalxanqala sakinləri həyəcan içərisində idi. Sahil də onlara veriləcək yeni evin qapısından girməyi səbirsizliklə gözləyirdi. Tədbir başladı. Evlər təhvil verildi. Sahilgilin ailəsi də yeni evin sevincini yaşadı. Bundan sonra onun qarşısında bir məqsəd var idi: ali məktəbə qəbul olunmaq. Sahil bu arzusuna da çatdı, qəbul imtahanlarında yüksək bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq ixtisasına qəbul olundu. Dörd il müddətində nümunəvi tələbələrdən biri olan Sahil ali təhsilini başa vurduqdan sonra Çalxanqala kəndinə qayıtdı. Məktəbdə işlə təmin olundu.

Budur, hərbi paltar geyinmiş Sahil müəllimlə məktəbin həyətində gəzə-gəzə söhbət edirik. Məni maraqlandıran ilk sualımı ona yönləndirmək istəyirəm. Ancaq, əslində, sualın cavabını bilirəm. Amma bu cavabı onun dilindən eşitmək istəyirəm.

– Ən böyük arzularımdan biri hərbçi olmaq idi. Universitetə arzusunda olduğum ixtisasa qəbul oldum. Düşündüm ki, mən bu formanı geyinib məktəbdə Vətənimə xidmət edəcək və sabahın əsgərlərini yetişdirəcəyəm. Biz çox əziyyətlər çəkmişik. Öz torpaqlarımızı tərk etmişik. Bizimlə bərabər burada neçə ailə yaşayır. Bu ailələrdə göz açan uşaqlar o torpaqlarımızı görməyiblər, başımıza gətirilən müsibətləri bilmirlər. Amma hər dərsdə onlara bu haqda məlumat verirəm. Elektron lövhədə qısa filmlərlə yaşadıqlarımızı şagirdlərimə çatdırıram. Əzəli yurd yerlərimiz haqqında onlara danışıram. Vətənimizin dilbər guşəsi Qarabağ torpağı indi düşmən tapdağı altındadır. Od-ocağı yağmalanmış, torpağı talanmış bu elin həsrəti hamımızın qəlbini göynədir.

Zəng çalınır. Sahil müəllim söhbətimizin sonunda deyir: – Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik olan milli ordusu vardır. Dövlətimizin artan gücü və hərbi qüdrəti, bir də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi belə bir inam yaradır ki, tezliklə əzəli və əbədi torpaqlarımız işğaldan azad olunacaq. Dövlət başçısının “biz öz ərazi bütövlüyümüzü istənilən yolla azad edəcəyik” kimi qətiyyətli bəyanatı da bu inamdan xəbər verir.

**Sara ƏZİMOVA**

## *Bədii gimnastika* muxtar respublikada sevilən idman növünə çevrilib

***İnsanın istər daxili, istərsə də xarici görkəmi, həmçinin mədəniyyətinin formalaşmasında idmanın böyük rolu var. İdman gələcək nəslin sağlam ruhda tərbiyə olunmasında, cəmiyyət üçün sağlam fərd yetişdirilməsində, insanlar arasında münasibətin yaranmasında, eləcə də ölkənin beynəlxalq arenada tanıdılmasında mühüm rol oynayan sahədir.***



Bu gün Azərbaycanda bu sahə hərtərəfli dövlət qayğısı hesabına özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasının timsalında bunu görmək olar. Blokada vəziyyətində yaşamasına baxmayaraq, bu gün muxtar respublikanın şəhər və rayonlarında istifadəyə verilən komplekslər, idman zalları, meydançalar idman sahəsində uğurlar qazanılmasında mühüm rol oynayır. Hazırda Naxçıvanda olimpiya-idman növləri ilə yanaşı, qeyri-olimpiya idman növlərinin də uşaqlar, yeniyetmələr və gənclər arasında geniş vüsət alması üçün müəyyən tədbirlər həyata keçirilir.

Adətən, idmanın elit bir sahə olduğunu cəmiyyət qəbul etsə də, zərif sahə olduğu ilə çoxları razılaşmır. Bəzi idman növləri var ki, onlar daha çox incəlik və zəriflik tələb edir. Bunlardan biri də bədii gimnastikadır. Tarixi uzaq keçmişə söykənən bu növ bütün idman növlərinin başlanğıcı hesab edilir. Naxçıvanda da bu növün geniş yayılması üçün son illərdə xeyli iş görülüb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Xatun" bədii gimnastika bölməsi yaradılıb. Bir ildən çoxdur, fəaliyyət göstərən gimnastika bölməsi Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasının zalında yerləşir. Məşqlər isə məşqçi-müəllim Humay Qafarova tərəfindən aparılır.

Məşq prosesi ilə tanışlıq zamanı daha çox diqqətimizi cəlb edən məqam azyaşlı uşaqların da bu idmana maraq göstərməsi oldu. Məşqçi Humay Qafarova bildirdi ki, indi bədii gimnastikaya müraciət edənlərin əksəriyyəti 3-8 yaşlı qızlardır. Valideynlərin uşaqları bu yaşda gimnastikaya gətirməsi sevindirici haldır. Çünki bədii gimnastikada uğur qazanmağın təməli bu yaşlardan qoyulur.

Öyrəndik ki, bölmədə 3 qrupda 80-ə yaxın uşaq bədii gimnastika ilə məşğul olur. Fiziki imkanları məhdud uşaqlar üçün də ayrıca qrup yaradılıb. Onlara xüsusi olaraq diqqət göstərilir. Hər bir uşaqla yaxından maraqlanılır. Bəzi istedadlı uşaqlara isə əlavə olaraq məşq keçirilir.

Humay Qafarova qısa vaxtda qazanılan uğurların səbəblərindən də danışdı: "Bədii gimnastika ilə məşğul olan uşaqların uğur əldə etməsinin əsas səbəbi yaradılan şəraitdir. Zal bədii gimnastika üçün xalça ilə döşənilib, uşaqların məşq zamanı məşğul olmaları üçün nərdivanlar, həmçinin güzgülər quraşdırılıb. Yaradılan şərait valideynlərdə də xoş təəssüratlar oyadır və onlar övladlarını bu sahəyə yönləndirməkdə maraqlı olurlar".

---

***Naxçıvan Muxtar Respublikasında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının aşağı yaş qruplarına aid komandalar üçün təşkil etdiyi turnirlərin oyunları başa çatıb. Şərur Olimpiya-İdman Kompleksində təşkil olunan turnir bir həftə davam edib. Reqlamentə əsasən, 11, 12, 13 və 14 yaşlı uşaqlardan ibarət komandalar mübarizə aparıblar.***

## Şərurda təşkil edilən futbol turnirləri başa çatıb

10 yaşlı futbolçular arasında keçirilən turnirin final qarşılaşmasında Şahbuz və Kəngərli komandaları üz-üzə gəliblər. Gərgin keçən matçın əsas və əlavə hissəsi heç-heçə (3:3) başa çatdığından qalib penalti zərbələrindən sonra məlum olub. 11 metrlik zərbələri daha dəqiq yerinə yetirən Kəngərli futbolçuları həmyaşıdları arasında turnirin qalibi olublar. Elə 11 yaşlı uşaqlar arasında da finala Şahbuz futbolçuları vəsiqə qazanıblar. Onlar bu dəfə həlledici görüşdə şərurlu həmkarlarını sınağa çəkiblər və meydanı 6:4 hesablı qələbə ilə tərk ediblər. Ümumiyyətlə, cari turnir Şahbuz futbolçuları üçün uğurlu olub. 12 yaşlı futbolçular arasında da onlar finalda oynamaq hüququ qazanıblar. Digər final görüşündə olduğu kimi, bu həlledici qarşılaşmada da onların rəqibi Şərur futbolçuları olub. Yenə də meydanı qələbə ilə tərk edən şahbuzlular olub – 3:2.

13 yaşlı futbolçuların liqasında isə qalib adını Ordubad komandası qazanıb. Onlar Naxçıvan şəhərinin komandasını çətin də olsa, məğlub etməyi bacarıblar – 2:1. Son olaraq 14 yaşlı futbolçuların mübarizəsində meydanı qalib kimi tərk edən Naxçıvan komandası olub. Həlledici görüşdə şərurlu həmkarlarını məğlubiyyətə uğradan Naxçıvan komandası bu liqanın baş mükafatını qazanıb – 2:0.

Ümumtəhsil məktəblərinin VII sinif şagirdlərinin "Məktəbli kuboku" turnirinin finalçıları isə Şərur və Ordubad məktəbliləri olublar. Bu görüşdə daha üstün oyun sərgiləyən Şərur komandası meydanı quru hesablı qələbə ilə tərk edib – 3:0.

Qeyd edək ki, Bakıda keçiriləcək final görüşlərində muxtar respublikanı 10 yaşlılarda Kəngərli, 11 və 12 yaşlılarda Şahbuz, 13 yaşlılarda Ordubad və 14 yaşlılarda Naxçıvan komandaları təmsil edəcəklər. "Məktəbli kuboku"nda iştirak etmək hüququnu isə Şərur komandası qazanıb.

## İdmançılar və məşqçilər üçün seminar



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Şərq Döyüşü Sənəti Federasiyasının təşkilatçılığı ilə seminar keçirilib.***

Şərq Döyüşü Sənəti Federasiyasının idmançıları və məşqçiləri üçün təşkil edilən taktiki-texniki seminarda 30-dan çox idmançı iştirak edib. Seminar Bakı şəhərindən dəvət olunmuş Azərbaycan Respublikasının Əməkdar məşqçisi Hidayət Şabanov tərəfindən aparılıb.

Seminar ərzində idmançılara və məşqçilərə kikboksinq üzrə məlumatlar verilib, tətbiq olunan yeni qaydalar praktik olaraq göstərilib.

✍ **Ceyhun MƏMMƏDOV**

---

***Müasir dövrdə icbari sığortaların mühüm bir növü də istehsalatda baş verə biləcək bədbəxt hadisələr nəticəsində insanların həyatına və sağlamlığına, əmək qabiliyyətinə dəyən zərərlərin əvəzinin ödənilməsinə xidmət edən sığortadır. Bu sığorta növünün icbari qaydada tətbiq olunması ictimai zərurətdən irəli gəlib cəmiyyətdə hər kəsin – həm işəgötürənin, həm də işçinin mənafelərinə xidmət edir.***

## İstehsalatda bədbəxt hadisələrdən icbari sığortaya hər kəs maraqlı olmalıdır

Qeyd edək ki, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta mühüm bir tələbatdır. Belə ki, hazırda istehsalatda çalışan hər bir şəxsin sağlamlığının qorunması üçün lazım olan hər cür tədbirlər görülsə də, bəzi fəaliyyət növlərində müşahidə olunan riskli hallar zamanı bədbəxt hadisələr baş verə bilir. Bəzən texnika ilə davrandıqda, bəzən də bir anlıq diqqətsizlik zamanı baş verən bir hadisə insanın sağlamlığına təsir etməklə onun həyatına və maddi vəziyyətinə ciddi zərər vurur. Buna görə də "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılan icbari sığorta hər bir işçinin və sahibkarın maraqlarına xidmət edir. Bu qanuna əsasən tətbiq olunan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığortaolunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişlərinin verilməsini nəzərdə tutur.

İcbari sığortanın bu növündə məqsədlər çox konkretdir. Burada sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin öz hüquq və vəzifələri vardır. Belə ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən, işəgötürən hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda çalışanlar, sahibkarlıq və fərdi qaydada əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bunlardan əlavə, həmin qanuna görə, istehsalat təcrübəsi keçən tələbələr, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən, peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Hər bir sığorta növündə təminat verilən sığorta hadisələri müqavilə bağlanılarkən əvvəlcədən müəyyənləşdirilir. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı isə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmalı olan şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları sığorta hadisəsi hesab olunur. Bağlanmış müqaviləyə əsasən, belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği ödənilir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığortaçı ödəyəcəyi sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi və ölüm ilə əlaqədar sığortaolunan və yaxud faydalanan şəxslərin sığorta ödənişi almaq hüququ vardır. Bu sığorta növü üzrə aşağıdakılar faydalanan şəxslər hesab olunur: istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digərləri faydalanan şəxslərdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı sığortahaqqının məbləğinə gəldikdə bu, xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılıdır. Belə ki, bu məbləğ 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Hər bir işçinin iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortasının həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsi olmaqla bərabər, həm də hər bir işçinin qanunla təsbit edilmiş haqqıdır. İşəgötürən sahibkar tərəfindən bu, öz işçilərinin sosial müdafiəsinin tam təmin edilməsi, işçilərin maraqları baxımından isə gələcəkdə öz maddi təminatlarını risk altına almamaqdan ibarətdir. Ona görə də bu sığortanın icbari olaraq aparılması bütün hallarda həm işçilərin, həm də işəgötürən sahibkarların mənafelərinə xidmət edir.

✍ **Əli CABBAROV**

---

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 860631 | 86063 | 86363 | 100,3 |
| 2. | Ordubad rayonu | 1214263 | 121426 | 121817 | 100,3 |
| 3. | Babək rayonu | 2144840 | 214484 | 214884 | 100,2 |
| 4. | Şərur rayonu | 2119767 | 211977 | 212277 | 100,1 |
| 5. | Şahbuz rayonu | 733398 | 73340 | 73430 | 100,1 |
| 6. | Culfa rayonu | 1180290 | 118029 | 118129 | 100,1 |
| 7. | Sədərək rayonu | 248509 | 24851 | 24865 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 2659094 | 265909 | 265950 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5001991 | 499849 | 549415 | 109,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16162783** | **1615928** | **1667130** | **103,2** |

---

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

### *2016-cı il üçün kotirovka elan edir*

*Yaz-yay mövsümü üçün əşya əmlaklarının satın alınması.*

Kotirovka 15 aprel 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 16 aprel 2016-cı il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Murad Cabbarov***
***Telefon/Faks: 544-48-34***
***Ünvan: Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi***

## Elan

15 aprel 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Şəhər İcra Hakimiyyətinin binasında şahmat üzrə test imtahanları keçiriləcəkdir. İmtahanda Bakı şəhərindən dəvət olunmuş şahmat mütəxəssisləri iştirak edəcəklər. Arzu edənlər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına (Naxçıvan Şahmat Mərkəzi) müraciət edə bilərlər.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 266